*Ülkər NƏBİYEVA*
*Bakı Dövlət Universiteti*

# «KİTABİ-DƏDƏ QORQUD»DA CƏMİYYƏTDAXİLİ ZİDDİYYƏTLƏR

«Kitabi-Dədə Qorqud» bütövlükdə oğuz tayfa həyatı və mədəniyyətini geniş epik lövhələrlə əks etdirən, ilk növbədə şifahi şəkildə yaranan ən böyük ümumtürk abidələrindən biridir. Burada oğuzların həyatı çox qədimdən başlayaraq Bayandır xan dövrü də daxil olmaqla geniş bir tarixi kəsimi əhatə edir. Tarixdən məlumdur ki, Bayandır xan Oğuz xan nəslindəndir. İlk qəbilə ittifaqına başçılıq edir. Eposda oğuz qəbilə birləşmələri qrupu təsvir edilir. Onlar Üç-ox, və Boz-ox kimi iki yerə ayrılır. Müvafiq olaraq İç və Diş oğuzlar kimi də şərtləndirilir. Bayandır xan İç və Dış oğuzlar arasında qarşılıqlı əlaqə quraraq oğuzu birləşdirə bilir. Bu idarəçilik icma dövrünün ən demokratik idarə forması olub, dövrünə görə böyük əhəmiyyətli mövqe nümayiş etdirmiş, bütövlükdə oğuz mədəniyyətinin inkişafına mühüm təsir göstərmişdi. «Oğuzların qəhrəmanlığına həsr olunmuş eposun özündə dövlətin hüquqi həyatı haqqında əlavə məlumatları ehtiva etməsi təbiidir. 12 dastandan ibarət olan epos oxucu gözlərinin qarşısında tarixi keçmişin bütün qəbilədaxili və qəbilələrarası çoxşaxəli münasibətin mənzərəsi canlanır ki, bu da tədqiqatlarda «Kitabi-Dədə Qorqud»un əsrlər ərzində xalq yaradıcılığının məhsulu haqqında deyilən faktı təsdiq edir» (1,s.58-59).

Eposda iki oğuz qəbiləsinin birləşməsini, bu birliyin başında isə Bayandır xanın dayandığını görürük. Bayandır xan vaxtaşırı məclis düzəldir, bəyləri bura dəvət edir, ölkə idarəçiliyinin müxtəlif məsələləri burada müzakirə olunur. Xanın idarəedicilik təşəbbüsləri burada bəyan edilir. Lakin bununla yanaşı, «Xanlar xanı», «Türkün qüdrətli xaqan»ı və başqa titullarla şəxsləndirilən Bayandır xan eposda ümumilikdə az görünür. Başlıca idarəedici isə Bayandır xanın yaxın köməkçisi, xanlığın ikinci şəxsi, qoşun böyüyü, bəylərbəyi Qazan bəydir. Oğuz qəbilə və tayfa idarəçiliyi formasına fikir verdikdə aydın görmək olur ki, bu xaqanlıq idarəçiliyi formasıdır. Həmən birlikdə 24 oğuz tayfası cəmləşmişdir. Bayandır xanın məclisində iştirak edən tayfalara daxil olan qəbilələrin başçıları var və hər bir qəbilə başçısı xanın məclisində iştirak edir. Qəbilə başçıları əslində müstəqildir. Lakin bu müstəqillik onların öz qəbiləsi daxilindədir. Onlar qonşu elə hücum etməkdə, ova çıxmaqda, qonşu və düşmən qəbilə ilə münasibətdə xanlığın mövqeyindən çıxış etməlidir. Əgər hansısa qəbilə bir qərar qəbul etmək istəyirsə mütləq Bayandır xana müraciət etməlidir. Ən azı isə Qazan bəyi xəbərdar etməli və ondan icazə almalıdır. «Qəbilələrarası və qəbilədaxili münasibətlər qarşılıqlı yardım prinsipi və Bayandır xanın ali hakimiyyətinə tabelik əsasında qurulmuşdur. Qarşılıqlı kömək və yardım münasibətləri boylarda qabarıq tərənnüm edilir. Buna «Salur Qaranın evinin yağmalanması» boyu parlaq misal ola bilər» (27,s.59). Bu boyda Qazan elinə hücum edən tayfaya, düşmən elinə münasibət birmənalı

deyildir. Azərbaycan, eləcə də bəzi türk tədqiqatçıları bunu qonşuluqda yaşayan və oğuzlarla düşmənçilik münasibətində olan kafirlərin adı ilə bağlayırlar (2,s.127). Əbülqaziyə görə isə bu yağmalamanın səbəbkarı qonşu kafir tayfalar yox, peçeneqlərdir. Bu mülahizə isə eposun tanınmış tədqiqatçısı V.M.Jirmunski tərəfindən təsdiqlənir və müdafiə edilir. Amma bizə belə gəlir ki, bu dövrdə peçeneqlər oğuzlardan xeyli uzaqda idi və bizə gəlib çatan bir sıra məlumatlara görə, onların oğuzlarla elə düşmənçilik münasibətləri hələ kəskinləşməmişdi (3,s.47). V.M.Jirmunski, görünür, Əbulqazinin türklərin tarixi yerləşməsi və işğalları ilə bağlı faktlara əsaslanıb bu yağmalamada peçeneq izini irəli çəkir (4,s.528-529). Bütün bu mülahizələrə onu da əlavə etmək gərəkdir ki, Qazan bəyin evinin düşmən tərəfindən yağmalanması oğuz idarəçiliyinə son qoymaq, yaxud onu əsaslı şəkildə sarsıtmaq məqsədi daşıyırdı. Hücüm edən düşmənin adı da aydın idi. Bu oğuz elinin başlıca düşmənlərindən biri olan Şöklü Məlik idi. Qazan – Şöklü Məlik qarşıdurması əslində oğuz xaqanlıq idarəçiliyinin sınağı idi. Qazan xan bu sınaqdan yaxşı çıxsa da bir neçə cəhətdən bu döyüş oğuz eli üçün alçaldıcı idi. **Birincisi**, hücuma məruz qalan xan idarəçiliyinin baş sərkərdələrindən biri idi və düşmən onun üzərində kifayət qədər qələbə qazanmışdı. **İkincisi**, bu məğlubiyyət Qazan xanın özünün səhvi, içkili başla qərar qəbul etməsi, ehtiyatsızlığı və laqeydliyinin nəticəsi idi. **Üçüncüsü**, Qazan düşmən üzərində qələbə qazansa da bu öz mahiyyətinə görə alçaldıcı qələbə idi. Nəhayət, **dördüncüsü**, bu qələbədə çoxlu itkiyə, canlı qüvvə itkisinə yol verilmişdi (5,s.49-51). Qazan bəyə qəbilə başçısı olan bəylər köməyə gedir, Qazanın qələbəsi əslində xanlıq bəylərinin birgə köməyi ilə mümkün olur.

Eposdan görünür ki, Dış oğuzun başçısı Qazan xanın dayısı Aruz qocadır. İç oğuzla Dış Oğuz nəsil şəcərəsinə görə yaxın olduğu kimi, gündəlik məişət həyatındakı qohumluq əlaqələrinə görə də bu qohumluğu möhkəmlətməkdədirlər. Məsələn, Bamsı Beyrək Dış Oğuzlardan evlənmişdir, ancaq o, İç Oğuzdan olan bəylərbəyinin qaynıdır. Belə qohumluq əlaqələri iki el arasındakı münasibətlərin tənzimlənməsində mühüm rol oynayır. Hətta onlar arasında münasibətlər kəskinləşdikdə tənzimlənmə imkanı saxlanılır. Müxtəlif qəbilələrin başçısı olan bəylərin hər birinin 40 cəngavəri vardır. Oğul övladı olduqdan sonra bəylik alıb özünə yeni taxt quran cavan igidlərin də qırx nəfərlik dəstəsi vardır «Dastan mətninə görə, divana üz tutub «aqın» (hücum) üçün icazə istəyənlərə, düşmən qalasından çıxıb elə dönmüş igidlərə, atasını dustaqdan qurtarmağa gedən döyüşçülərə silahlı dəstə verilir. Uşun Qoca oğlu Əgrək «üç yüz say cidalı igid» götürüb yola çıxır (5,s.134). Belə xahişlər, icazələr olanda car çəkilir, könüllülər yığılır, «sancaq bəylərini Bayandır xan özü müəyyənləşdirir «İyirmi dörd sancaq bəyi gəlsin – dedi (5,s.110). Bu könüllülər hünər göstərmək üçün, ərənlik, alplıq iftixarı ilə səfərə çıxırlar. Dastanın iki boyunda Oğuz elinin geniş kütləsi silaha sarılır. Qazan oğlunu xilas etməyə gedəndə, xatununa eşitdirməmək üçün gizlicə tapşırır «Doqsan tümən oğuz ardımca gəlsin! Oğlan dustaqdır! Bəylər bilsinlər (5,s.80). Doxsan tümən

igidin mütəşəkkil yürüşü görünmür Qazana köməyə gedən bu qüvvənin başçısı da bilinmir, tanınmamış bəylər isə igidləri ilə yetib düşməni qırırlar».

Xan Bayandırın özünü müdafiə edən nizami ordusu yoxdur Ancaq bəylərin igidləri peşəkar döyüşçülərdir. Onlar lazım gələndə eli, ayrı-ayrı qəhrəmanları müdafiə edirlər. Ancaq döyüşlərdə hər iki tərəfdən təlafat çox olur.

İç Oğuz və Dış Oğuz tayfalarının Bayandır xana tabeliyində dövlətçiliyin zəif də olsa formalaşma prinsipləri vardır. Belə ki, tayfa hakimiyyətinə daxil olan 24 oğuz tayfasından hər birinə yalnız xanlar xanı Bayandır xanın fərman verməsi, əmr etmək hüququ təsdiq edilmişdir. Daha doğrusu, 24 tayfa başçısı razılığa gəlmişlər ki, xanlıqda yalnız Bayandır xan fərman verə bilər və xanlığa daxil olan bütün tayfaların başçıları isə ona tabedirlər. Lakin bununla belə, tayfa başçıları olan bəylər tam sərbəstdir, xanın qadağa çərçivəsindən çıxmamaqla onlar öz qəbilə və ya tayfalarında müstəqildir «Eposda vassal münasibətlərinin atributları bütün aşkarlığı ilə təsvir edilmişdir. Bəylərə drujinaçılar deyildilər. Onların hər biri qəbilə rəhbəri, öz qəbiləsinin müstəqil hökmdarı idi. Lakin bütün bunlarla belə, onlar xanlar xanı Bayandır xanın və ya Salur Qazanın iradəsinə tabe idilər.

Boyda tabeliyin zahiri formaları barədə də danışılır: xan qarşısında dizi üstə çökmə, yaxşı xidmətə, qəhrəmanlığa, düşmənlər-kafirlər üzərində qələbəyə görə suverendən mükafat almaq və s.

Məlum olduğu kimi, suveren-vassal münasibətlərində hər iki tərəfin üzərinə hüquq və vəziyələr düşürdü.

Bununla əlaqədar olaraq ancaq monarx – suverenin öz vassallığına kömək göstərməyə, onların evini və ailəsini müdafiə etməyə dair hüquq və vəzifələri haqqında məlumatla kifayətlənmir. Epos onun vəzifələrinə öz bəylərinə sərvətlər (kürklər, mahud, geyim) bağışlamasını da aid edir. «İç Oğuza Dış Oğuz asi olub Beyrəyin öldüyü boyu bəyan edər» boyu öz evini bəylərə «yağmalanmağa verməsini əks etdirir. Belə və buna bənzər faktlar demək olar ki, bütün boylarda təsvir edilir, öz növbəsində bəylər də Bayandır xan qarşısında vəzifələr daşıyırlar. Belə ki, suverenin ilk çağırışı ilə onlar öz dəstəsilə gəlməlidir...» (1,s.62).

Oğuz elində idarəçilikdə zorakılıq yoxdur. Bayandır xana, eləcə də öz tayfasına, qəbiləsinə məhəbbət oğuzlar içərisində genişdir. Burada oturaq həyata keçid əlamətləri güclüdür. Tayfanın güzəranının yaxşılaşması, əkin-biçin işlərinin genişləndirilməsi üçün mərkəzi idarəçilikdən tədbirlərin görülməsi nəzərə çarpmır. Ayrı-ayrı igidlərin söyləmələrində ilxı, sürü, dəvələr, çöl-çayırın vəsfindən görünür ki, oğuz eli maldar görüşlərinə hələ daha çox tabedir. Xanlıqda idarəçilik və dövlətçilik tələblərinin möhkəmləndirilməsinə elə meyl göstərildiyi nəzərə çarpmır. Əksinə, xanlığı möhkəmləndirmək tədbirləri əvəzinə eposda ayrı-ayrı qəhrəmanlar, onların taleyi, əsir düşməsi, yaxud doğmaları tərəfindən əsirlikdən xilas olması üçün xan Bayandırın razılığı ilə görülən tədbirlər üstünlük təşkil edir. Yaxud eposda düşmən tayfaların hücumu, tayfalararası münasibətlər, onların kəskinləşməsi və tənzimlənməsi daha çox görüntü yaradır. Amma bütün bunlara baxmayaraq, «Kitabi-Dədə Qorqud»da ilk oğuz dövləti və onun idarəçilik nümu-

nəsi bütün görünən və görünməyən cəhətləri ilə özünü göstərir ki, bunun da ayrıca tədqiqinə şübhəsiz ki, ehtiyac vardır.

Epik yaddaşda yaşayan oğuz dövlətçiliyi və idarəciliyinin müxtəlif ənənələri türk eposunda sonralar da ayrı-ayrı şəkillərdə, formalarda yaşamışdır. Bu isə ümumilikdə türkün qədim dövlət idarəçilik ənənələrini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. İlk, ibtidai dövlət tipi kimi, Bayandır xan dövlətçiliyi türkün ən qədim idarəçilik formalarındandır.

Yuxarıda qeyd etdiyimiz kimi, xan Bayandırın başçılıq etdiyi xanlıq İç və Dış Oğuz qəbilə birləşməsi əsasında yaranan idarəçiliyə əsaslansa da bütövlükdə ən qədim xaqan dövlətçiliyi tiplərindən biri idi.

İdarəçiliyin özündə də bu tayfa və dövlətlərin başçıları bu və ya digər şəkildə təmsil olunurdu. Əgər Bayandır xan oğuzların baş xaqanı idisə, Salur Qazan onun bəylərbəyisi – İç Oğuzu təmsil edən qəhrəmanlardan biri idi. Aruz Qoca isə Dış Oğuzun başçısı idi. Oğuz elində tayfalararası münasibətlərin qoruyucusu Qazan xan idisə, hər tayfanın, xüsusən Dış Oğuza daxil qəbilələrdə münasibət tənzimləyicisi Aruz qoca idi. O, həm də Qazan bəyin dayısı idi.

«Kitabi-Dədə Qorqud» eposunda Oğuz tayfası ilə bağlı **iki tip** ziddiyyət mövcuddur. Təbii ki, onların birincisi tayfaxarici ziddiyyətdir. Yəni oğuzun düşmənləri hesab edilən kafirlər hücum edib oğuzu talamaq, onun varidatını ələ keçirmək, qızgəlinini aparmaq, igidlərini əsir etməyə fürsət axtarırdı. Bunu biz II boyda («Salur Qazanın evinin yağmalanması»), IV boyda («Qazan bəg oğlu Uruz bəyin tutsaq olduğu»), və XI boyda («Salur Qazan tutsaq olub oğlu Uruz çıxardığı boyu bəyan edər»də) görə bilirik. Bu boylarda – kafir talanlarına məruz qalan oğuz elinin qonşuları ilə xarici ziddiyyətlərdə olduğu diqqəti çəkir. Bundan əlavə, xarici ziddiyyətləri, eyni zamanda «Qambörənin oğlu Bamsu Beyrək boyun bəyan edər»də, «Uşun Qoca oğlu Səgrək boyunu bəyan edər»də və epizodik şəkildə daha üç boyda da görə bilirik. – Birinci üç boyda oğuzların üzərinə hücum edən kafirlər oğuzu dağıdıb talan etməyə çalışırlar. Buradakı ziddiyyətlər köklü düşmənçiliklə bağlıdır. Məsələn, «Salur Qazanın evi yağmalandığı boyu bəyan edər» buna ən yaxşı misaldır. Burada Şöklü Məlik Qazanın yurdunu təkcə yağmalamır, viran qoyur. Təkcə ilxısını, sürüsünü aparmır, qız-gəlinini, oğlunu, qoca anasını əsir götürüb aparır. Bu oğuz elində görünməmiş talandır. Burada qəzəb, qisasçılıq güclüdür. Türk xalqlarının başqa heç bir eposunda belə köklü talan epik yaddaşda özünü göstərmir. Bu tipli ikinci talana, eposun başqa bir süjetində demək olar ki, təsadüf olunmur.

Eposda qədim zamanlarda olduğu kimi, düşmənlə ardı-arası kəsilməyən müharibələr yoxdur. Ancaq Qazan bəyin evinin talanması tipinə görə ən işğalçı müharibələrdə belə təsadüf olunmayan qisasçı talanla səciyyəvidir. Bu talanın qisasçılıq mahiyyəti yurdun viran edilməsində, yurd ocağının dağıdılmasında, bütün varidatın, mal-qaranın, ilxıxının, sürülərin aparılmasında deyil, eyni zamanda talandan sonra yurdunun arxasınca gəlmiş Qazan bəylə üzbəüzə dayanmış düşmənin cavablarında özünü göstərir. Qazan bəy Qaraca çobana döyüşə başlamazdan əvvəl deyir: «Qaracıq Çoban, anamı kafərdən diləyəyim, at ayağı altında qalmasun» - dedi» (5,s.48).

Təbii ki, bu Qazanın yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olduğunu göstərir. Bu fakt özlüyündə onun bir sıra ziddiyyətli cəhətlərini arxa plana keçirir, onu oğuzun qəhrəmanlıq simvoluna çevirir.

Qazan kafəri çağırıb deyir:

*«Mərə, Şökli Məlik!*
*Dünlügi altun ban evlərimi gətirib durarsan, sana kölgə olsun!*
*Ağır xəzinəm, bol ağcam götürüb durursan, sana xərclıq olsun!*
*Qırq incə belli qızla Burla xatunı götürüb durursan, sana yesir olsun!*
*Qırq yigiddən oğlum Uruzu gətirüb durursan, qulun olsun!*
*Tavla-tavla şahbaz atlarımı gətirüb durursan, sana binət olsun!*
*Qatar-Qatar dəvələrim gətirib durursan, sana yüklət olsun!*
*Qarıcıq annam gətürüb durursan, mərə kafir, anamu vergil mana!*
*Savaşmadan, uruşmadan, qayıdayım geri dönəyim, gedəyim, bəllü bilgil – dedi (5,s.48).*

Kafir çox məkrli olub, eyni zamanda qisasçıdır. Şöklü Məlik Qazan bəyin müraciətini eşidib nəyinki ona qulaq verir, əksinə, bəyi çox ağır şəkildə təhqir edərək deyir:

*«Mərə Qazan!*
*Dünlüki altun ban evini gətürmüşüz bizimdir*
*Qırq incə bellü qızla Boyı uzun Burla xatunu gətirüb durur, bizimdir.*
*Qırq yigiddən oğlın Uruzu gətürmüş, bizimdir!*
*Tavla-tavla şahbaz atlarını, qatar-qatar dəvələrin gətirmişüz, bizimdir.*
*Qarıcıq ananı gətürmüşiz, bizimdir!*
*Sana verməriz, Yayxan keşiş oğlına verəriz,*
*Yayxan keşiş oğlundan oğlan toğır,*
*Biz anı sana qənim qoruz-, - dedilər (5,s.48-49)*

Göründüyü kimi, cavab çox iyrənc, qəzəbli və məkrlidir. Düşmən təkcə qələbəsinə güvənmir, eyni zamanda oğuzu məhv etməklə, ona qarşı yeni-yeni düşmənlər hazırlayıb onu tam tərkisilah etmək məqsədini öz qarşısına qoyduğunu əks etdirir.

Şöklü Məliyin ağır cavabı qarşı-qarşıya dayananlar arasındakı ziddiyyətlərin çox dərin düşmənçilik köklərinin olduğunu göstərir. Buradan görünür ki, Qazanla Şöklü Məlik arasında artıq ziddiyyət yox, açıq və qatı düşmənçilik vardır. Düşmənçilik isə ancaq qılınc gücünə aradan qaldırıla bilər. Qəzəblənmiş Qaraca Çobanın cavabı da bunu təsdiq edir. Qaraca çobanın düşmənə cavabı sərrast və dürüstdür. Burada bir ərənlik, düşməni öz sözü əsasında məğlub etmək, eyni zamanda onu müvəqqəti qələbədən çox qürrələnməməyə çağırışı vardır. Bu cavabda eyni zamanda düşmən üzərində ən yaxın vaxtda qəti qələbəyə bir inam özünü göstərər:

*«Mərə dini yoğ, əqilsiz kafir!*
*Ussi yox, dərrakəsiz kafir!*
*Qarşu yatan qarlı tağlar*

*Qarıyubdur otı bitməz.*
*Qanlı-qanlı irmaqlar*
*Quruyubdur, suyı gəlməz.*
*Şahbaz-şahbaz atlar*
*Qarıyubdur qulun verməz*
*Qızıl-qızıl dəvələr*
*Qarıyubdur, köşək verməz*
*Mərə kafir, Qazanın anası*
*Qarıyubdur oğul verməz.*
*Dölin almaqdan səfan varsa,*
*Şökli Məlik, qara gözlü qızın varsa gətur Qazana ver! Mərə kafər, sənin qızından oğlu toğsın, siz anı Qazan bəgə qənim qoyasız – dedi» (5,s.48-49).*

Oğuzla ziddiyyəti olan düşmənlər arasında bundan kəskin düşmənçilik gözə dəymir. Qaraca Çobanın sözündən sonra Qazanın adamları gəlib özünü yetirir və vuruş başlayır Qazan bəy bütün varidatını geri qaytarmaqla əsirlərini - anasını, oğlunu, arvadını, qırx incə belli xatununu azad etməklə Şöklü Məlik yurdunu yerlə yeksan edib talan edir. Bu da görünməmiş talan və iki tayfa, yaxud el arasındakı düşmənçiliyin son həddi idi.

Başqa boylarda da tayfa ziddiyyətləri zəmininə əsaslanan döyüşlər eposda özünü göstərir, ancaq onlarda elə amansızlığın şahidi olmuruq. Belə tayfa qarşıdurmalarında çox zaman iki qəhrəman döyüş meydanına dəvət edilir. Kim döyüşdə basılsa, əsir götürülür, qoşun isə başçısı təslim olduğuna görə meydanı tərk edir və geri qayıdır. Xüsusilə düşmən elinə hansısa məqsədlə hücum edən və məğlub olan qəhrəmanların dəstələri itgi verməməyə çox cəhd göstərirlər. Eposun ayrı-ayrı epizodlarında düşmən elinə müxtəlif məqsədlərlə gedən qəhrəmanlar düşmənlə üz-üzə gəlir. Ancaq belə məqamlarda tərəflər qarşılıqlı güzəştlərə gedir, razılaşmalara gəlir, böyük qanlı döyüşlərdən qaçırlar. Məsələn, Beyrəklə bəzirganlar arasındakı döyüş epizodu buna yaxşı misaldır. Bəzirganlar qız atasının onun üçün hədiyyə seçmək xahişindən xəbərsiz olan Beyrək karvanı açıb istədiyini oradan götürür. Ancaq karvanbaşı ilə onun arasında bir anlaşma da olur. Onlar bir-birinə güzəştə getməyi bacarırlar (5,s.52-54).

«Kitabi-Dədə Qorqud»da özünü göstərən ziddiyyətlərin **ikinci tipi** daxili qarşıdurmalardır. Əvvəlcə yaxşı olar ki, qısaca olaraq bu ziddiyyətlərin fərqi üzərində dayanaq.

Xarici ziddiyyətlər oğuzun xarici düşmənlərlə arasında olan qarşıdurmalardır. Mahiyyət etibarı ilə onlar, çox kəskin olub, oğuzu məğlub etmək, yurdunu ələ keçirib varidatına sahib olmaq niyyətlərini əhatə edir. Burada qisasçılıq, düşmənçilik çox dərin köklərə gedib çıxır. Bu ziddiyyətlərdə hər iki tərəfin məqsədi biri-birini məhv etmək, elini, yurdunu, torpağını ələ keçirməkdir. Ona görə də onlar öz mahiyyətinə görə barışmaz ziddiyyətlərdir. Oğuz elində özünü göstərən **ikinci tip** ziddiyyətlər isə qəbilə və tayfa daxilindədir. Onun məqsədi xarici ziddiyyətlərdə olduğu kimi heç də bütün elə, ulusa qarşı yönəlməmişdir. İlk baxışda

onlar tayfa həyatındakı ədalətsizlikləri aradan qaldırmağa, hakimiyyətdəki boşluqları ləğv etməyə yönəlir. «Kitabi-Dədə Qorqud»da bu ziddiyyətlər əsasən Bayandır xan hakimiyyətində birləşən İç Oğuzla Dış Oğuz arasındadır. Qazan xanın yumşaqlığı, laqeydliyi, bəzi hallarda isə təkbaşına qərar qəbul etməsi Dış Oğuzun başçısı Aruz qocanın xoşuna gəlmir. Xırda anlaşılmazlıqlar, qarşıdurmalar oğuz elində daxili ziddiyyətləri kəskinləşdirir.

Tayfalar arasında varidat mübarizəsi də mövcuddur. Eposun ayrı-ayrı boylarında Qazanın daha firavan yaşadığı nəzəri cəlb edir. Bayandır xanın yanında Qazan daha irəlidədir, daha çox var-dövləti var. Dış Oğuz elində buna laqeyd deyillər. Qazan getdikcə cəmiyyətdə öz mövqeyini möhkəmləndirir. Bayandır xanın etibarını daha çox qazanır. Bu isə onun dayısı Dış Oğuzun başçısı Aruzun diqqətindən yayınmır. Qazana qarşı artan qibtə getdikcə tayfalararası münasibətləri sərinləşdirir, qarşıdurmaları artırır, isti münasibətləri pozur. Qazan - Aruz Qoca münasibətlərini kəskinləşdirir. Sonrakı mərhələdə tayfa başçıları arasında yaranan bu qarşıdurmalar ziddiyyətlərə çevrilir. Aruz Qocanın hakimiyyətə qarşı münasibəti sərinləşir. Ölkə daxilindəki birlik pozulur, düşmənçilik yaranır. Oğuz elində xarici düşmənlərin görə bilmədiyi bir qarşıdurma şəraiti yaranır, qiyam şəraiti yetişməyə başlayır.

Qəbilə daxilindəki ziddiyyətlər Qazan xanın son dəfə evini yağmaladarkən – yəni Novruz bayramı axşamı düzəltdiyi məclisə Aruz qocanı, yaxud Dış Oğuz elindən heç kimi dəvət etməməsilə daha da kəskinləşir. Bu, Aruz qocaya çox ağır gəlir (5,s.47). O, növbəti yağmalanmaya (bayrama) Dış Oğuzun dəvət edilməməsini oğuz elinin parçalanması kimi qəbul edir. Bu parçalanmanın dərinləşməsinə, İç Oğuzla Dış Oğuz arasında münasibətlərin sərinləşməsinə, daha dəqiq desək, kəskinləşməsinə xüsusi təsir göstərir. Bu ziddiyyətlər getdikcə oğuz elində Qazan bəyə, onun yaxın çevrəsində yaşayan igidlərə də şamil edilir. Hətta ziddiyyətlər o dərəcədə kəskinləşir ki, yuxarıda deyildiyi kimi, ölkədə qiyam təəssüratı yaradır. Beyrəyin Qazan xanla yaxınlaşması İç Oğuzun möhkəmlənməsinə, tayfa hakimiyyətinə yaxınlaşmasına səbəb olur. Belə bir şəraitdə Aruz Qoca Qazan idarəçiliyini zəiflətmək, ondan əsaslı şəkildə qisas almaq üçün Beyrəyi öz tərəfinə çəkmək istəyir.

Oğuz elində tayfadaxili ziddiyyətlər o dərəcəyə gəlib çıxır ki, artıq tənzimlənmək imkanını itirir. Qazan bəy Qılbaş adlı bir igidi yanına çağırıb deyir ki, Aruz Qoca ilə inciklik nədəndir, o baş alıb gedir, sən bunun səbəbini bilməzsənmi, öyrənməzsənmi? Qılbaş deyir ki, sən evini yağmaladarkən Taş Oğuzı çağırmadın, Bəylər bundan incik düşdülər Qazan bəy Qılbaşa deyir ki, Taş Oğuza var, dayım Aruz qocaya de ki, dayım Aruz mənim yanıma gəlsin (5,s.123).

Qılbaş Aruzun yanına gedir, sifarişi ona yetirir. Deyir ki, üstümüzə düşmən gəlib, varımızı-yoxumuzu talayıblar. Ağam Qazan dedi ki, dayım Aruz köməyimə gəlsin. Aruz Qoca Qılbaşa deyir ki, suçumuz nəydi ki, Qazan evini yağmaladarkən bizi saymadı, bizi yağmaya dəvət etmədi. Qoy həimşə Qazanın başına bəlalar gəlsin, biz bundan sonra Qazana düşmənik, qoy o, bunu bilsin» (5,s.123). Qılbaş nə

qədər dil tökdü, Qazanın onun doğması olduğunu təkrarladısa Aruz Qoca öz sözünün üstündə durdu ki, biz Qazana düşmənik. Qılbaş onda bildirdi ki, üstümüzə heç bir düşmən zad gəlməyib. Biz dostluğunuzu-düşmənliyinizi bilmək istərdik. «Sən Qazana həqiqətən düşmənmişsən, bunu indi bildik (5,s.123). Bundan sonra isə Aruz qoca Dış Oğuz bəylərini bir-bir çağırdı və söylədi ki, biz Qazana düşmənik. Bəylər də bir ağızdan təkrar etdilər ki, biz də Qazana düşmənik.

Beləliklə, ziddiyyətlər daha da kəskinləşdirilib oğuz elində bir ayrılıq həddinə yetirilir, Qazana qarşı düşmənçilik gücləndirilir. Diqqət yetirdikdə Aruz qocanın məkrli niyyəti özünü daha aydın göstərir. O, oğuzun ən igid qəhrəmanlarını öz tərəfinə çəkib qiyam qaldırmaq, ölkədə bir çevriliş əhvalı-ruhiyyəsi yaratmaq istəyirdi. Amma bu işdə onun qabağını kəsənlərdən biri Beyrək idi. Aruz Qoca Beyrəyə xəbər göndərir. Beyrəyin Qazandan üz çevirib, onun tərəfinə keçməsini istəyir, daha doğrusu, onun tərəfinə keçməsini təklif edir. «Beyrək bizim göyümüzdür, gəlsin bizi barışdırsın. Bizim tərəfimizi saxlasa nə yaxşı, saxlamasa onun saqqalından tutaram, siz isə qılınclarsınız» deyir. Belə də olur. Ziddiyyətlərin, qəzəb və nifrətin kəskinləşdiyi bir məqamda Aruz qoca Beyrəyi yanına çağırır. Beyrək də heç bir silah götürmədən Aruzun hüzuruna gəlir. Aruz qoca deyir ki, biz bəylər Qazana asi olmuşuq, and içmiş, kitaba əl basmışıq ki, ona düşmənik. Sən də əl bas ki, Qazana düşmənsən. Beyrək isə Aruz qoca ilə razılaşmır, bu işə qol qoya bilməyəcəyini, Qazana qarşı çıxa bilməyəcəyini söyləyir:

*«Mən Qazanın nemətini çox yemişəm.*
*Bilməzsəm gözümə tursun!*
*Qaracuq Qazlıq atına çox yilmişəm!*
*Bilməzsəm, mənə tabut olsun!*
*Yaxşı qaftanlarını çox çoq geymişəm!*
*Bilməzsəm kəfənim olsun!*
*Ala bargah otağına çox girmişəm!*
*Bilməzsəm, mənə zindan olsun!*
*Mən Qazandan dönmərəm bəllu bilgil - dedi» (5,s.124).*

Cavab aydın, Beyrəyin sədaqəti məlum idi. Bunu o, bir daha Aruz qocaya çox soyuqqanlıqla bildirir.

Amma Aruz Qoca təkid etdi ki, Qazana düşmən olacağına and iç! Ancaq Beyrək dediyindən dönmür. Bu məqamda Oğuz bəyləri Beyrəyə qıymayanda Aruz Qoca qılıncını qaldırıb Beyrəyin bir yanını çapır. «Bəylər dağılışıb gedəndə Beyrəyi atının üstünə qoydular, cübbəsini üstünə salıb oğuza göndərdilər» (5,s.125).

Artıq bu, tayfadakı ziddiyyətlərin zirvəsi, qarşıdurmaların ən yüksək məqamı idi. Həm də Aruz qoca öz elinə, tayfasına, oğuzun qəhrəman bir oğluna əl qaldırdı. Türkün uzun zaman ərzində etnik yaddaşında yaşayan məqam – qardaşın qardaşa qılınc çalma məqamı eposa gəldi.

Beyrək heç bir müqavimət göstərmədi, soyuqqanlıqla ətrafında baş verənləri seyr etdi, Aruz qocanın üzünə qayıtmadı.

Beyrək bir onu vəsiyyət edə bildi ki, Qazan mənim qanımı yerdə qoymasın, qisasımı Aruzdan alsın. Bu isə artıq əsl qarşıdurma, qardaş tayfalar arasında parçalanmanın başlanğıcı idi. Oğuzda ziddiyyətlərin bu kimi kəskinləşməsi onların danışıqlarla tənzimlənməsi imkanını aradan qaldırırdı. Artıq oğuzda qiyam əhvalı aydın görünürdü. Ancaq eposdan məlum olmur ki, Aruz Qoca Bayandır hakimiyyətinə qarşı idi, yoxsa Qazanı yıxmaq, onun yerinə keçmək məqsədi güdürdü. Məlum olanı odur ki, Beyrəyi aradan götürdükdən sonra növbədə Qazan bəy idi. Qazanın devrilməsi isə Bayandır xan hakimiyyətinin sarsılması, mərkəzi devrilməsi demək idi. Əslində Beyrək öz ölümü ilə Aruz Qoca qiyamının məğlub olmasının əsasını qoyur. Beyrəyin vəsiyyətini Qazana çatdırırlar. Qazan bundan çox sarsılır. Otağına çəkilib yasa qərq olur. Ancaq Qazan bəyin igid ərənləri sayıq dayanırlar. Onlar Beyrəyin vəsiyyətindən istifadə edib Qazanı gecikməməyə, düşməndən Beyrəyin intiqamını yerindəcə almağa, Dış Oğuzda Qazana qarşı başlayan qiyamı yatırmağa çağırırlar. Eposda baş verən hadisəyə tez-vaxtında münasibət bildirmək, cavab vermək zərurəti boyda belə təsvir edilir.

«... - Bir yigit aramızdan əksildi, sənin yolında baş verdi. Derəm, qanın alalım, həm Sizə ismarlanmış, «mənim qanım alsun» demiş. Ağlamaqla nəsnəmi olur? Turı gəl yuqarı» - dedilər.

Qazan aydır: «Məsləhətdi. Tez cəbbəxanaya yüklətsünlər. Həp bəğlər, həp binsünlər!» - dedi.

Cəmi bəğlər bindi. Qazanın Qonur atın çəkdilər, bindi. Boru çalındı, kos üzuldu. Gecə-gündüz demədilər, yortma oldu.

Aruza xəbər... aldı. Qazana qarşu gəldilər.

Üçoq, Boz oq qarşılaşdılar. Aruz Qoca dedi: «Mənim İç Oğuzda qırınum Qazan olsun!». Əmən aydır: «Mənim qırınum Tərs Uzamış olsun! Alp Rüstəm aydır: «Mənim qırınum əncə Qoca oğlu Ogçı olsun!» - dedi. Hər biri bir qırım gözətdi. Alaylar bağlandı, qoşunlar düzüldu...

...Aruz qoca meydana at təpdi... Aruz Qazanın üzərinə at saldı. Qazanı qılıncladı, zərrə qədər kəsdirmədi, ətə keçdi. Növbət Qazana gəldi... Aruza bir köndər urdı. Köksindən yalab dəq ətə keçdi. At üzərindən yerə saldı. Qarındaşı Qaragünəyə işarət etdi: «Başın kəs!» - dedi. Qaragünə atdan endi. Aruzun başın kəsdi» (5,s.126).

Aruz qocanın öldürülməsi ilə ziddiyyətlər səngidi. Oğuzda baş verən qarşıdurma əslində ara verdi. Bu, ziddiyyətin kəskinləşib ölkə idarəçiliyini sıradan çıxarmasının qarşısı alındı. «Dış Oğuz» bəyləri Aruzun öldürüldüyünü gördükdə atdan enib Qazanın ayağına düşdilər, suçlarını dilədilər, əlin öpdülər. Qazan suçlarını bağışladı. Beyrəyin qanını aldı. Aruzun evini çapdırdı. Elini-gününü yağmalatdı! (5,s.126). Beləliklə, ölkədaxili ziddiyyət qılınc gücü ilə tənzimləndi.

«Kitabi-Dədə Qorqud» eposunda oğuzda baş verən qarşıdurma və ziddiyyətlərin danışıq, təsir göstərmə yolu ilə tənzimlənməsi də geniş yer tutur. Məsələn, Yalançı oğlunun əməlini Beyrək cəzasız buraxır, onu öz əməlinə peşman edib yol

verdiyi qəbahəti ona bağışlayır. Yaxud Bayandır xandan incik düşmüş Əmranı öz xanımı məzəmmət edib düşmən tərəfə keçmək fikrindən daşındırır və s. Ümumilikdə, türk epik yaddaşında daxili ziddiyyətlərinin bir çoxunun tənzimlənməsi qarşılıqlı anlaşmaya, güzəştə getməyə, bir-birini başa düşməyə əsaslanır. Bu isə oğuzlar arasında bütün sərt qaydalarla yanaşı, qarşılıqlı razılaşmanın, dostluq, yoldaşlıq duyğularının daha yüksək olduğunu göstərir. Eposda bütövlükdə bu tipli qarşılıqlı anlaşmaya çağırış çox güclüdür.

## ƏDƏBİYYAT

1. M.Məlikova. «Kitabi-Dədə Qorqud»da dövlət və hüquq haqqında ideyalar, «Dədə Qorqud» dünyası, Bakı, 2004, 287 s.
2. O.Şaiq. «Dədəm Qorqut» kitabı, Ankara, 1957, 452 s.
3. X.H.Koroğlu. Oğuz qəhrəmanlıq eposu, Bakı, 1999
4. В.М.Жирмунский. Народный героический епос – сравнително-исторические очерки, М-Л., 1962, 435 с.
5. «Kitabi-Dədə Qorqud», Bakı, 1988

***У.А.Набиева***

***Внутриобщественные противоречия в эпосе «Китаби-Деде Горгуд»***

В резюмируемой статье обобщаются внутриобщественные противоречия в эпосе «Китаби-Деде Горгуд». Особое внимание уделяется образам Аруз годжи и Газан бека, а также конфликту между героями Ич огуза и Дыш огуза.

***U.A.Nabiyeva***

***The intrasociety contradictions in epos "Kitabi-Dede Qorqud".***

In summarize article are generalize the intrasociety contradictions in the epos "Kitabi-Dede Qorqud". The special attention is given to contraditions of Aruz godja and Qazan bek, and also between the ich Oghuz and Dish Oghuz.